# GƏMİQAYA ABİDƏSİ HAQQINDA NƏ BİLİRİK?

*"525-ci qəzet"in 16.02.2006-cı il tarixli sayında Əjdər Fərzəlinin "Təkrarolunmaz abidələr diyarı" sərlövhəli məqaləsi dərc olunmuşdur. Müəllifin fikrincə guya Gəmiqayada Nuh peyğəmbərin qəbri tapılmışdır.*

*Bu haqda uzun müddət Naxçıvan Muxtar Respublikasının Gəmiqaya abidəsində aparılmış arxeoloji və elmi-tədqiqat işlərinə rəhbərlik etmiş Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyev özünün "Gəmiqaya abidəsi" məqaləsində qeyd edir ki, Ə.Fərzəlinin bu fərziyyələri sensasiya xarakterli uydurmadır. Belə ki, onun məqaləsində heç bir dəqiq elmi faktlara əsaslanmayan subyektiv şəxsi mülahizələr irəli sürülmüşdür.*

*Naxçıvanın Qapıcıq zirvəsi (3906 m) - xalq arasında Gəmiqaya zirvəsi adlanan yer dördüncü geoloji dövrdə yaranmışdır.*

*Qədim Şumer mənşəli yazılı məlumata görə, Nuh peyğəmbərin vaxtında ümumdünya daşqını baş vermiş, Nuh peyğəmbər öz cəmisi ilə üzüb Qapıcıq zirvəsi üzərindən keçərək Naxçıvana çatmışdır. Nuhun gəmisi Ağrıdağda deyil, Cəmiqayada dayanmışdır. Nuh gəmidən quruya çıxıb Naxçıvanda məskən salmış və burada yeni insan "nəsilləri" yaranmışdır. Naxçıvan şəhərinin əsası da bu dövrdə qoyulmuşdur. Qədim Şumer dünyası ilə bağlı, e.ə. IV-III minilliklərə aid edilən "Ümumdünya daşqını" haqqındakı əfsanənin Naxçıvanda yayılması tarixi həqiqətləri əks etdirir.*

Gəmiqaya ərazisindəki abidələrdə və bu dağla bağlı əfsanədə tarixi həqiqətlər hələlik araşdırılır. Professor Vəli Əliyevin yazdıqlarından aydın olur ki, Gəmiqaya hələlik dəqiq tədqiq edilməmişdir. Orada tədqiqatlar davam edir. Zənnimcə, ümumdünya daşqını yazılanlarda olduğu kimi əfsanə deyil, tamamilə həqiqətdir. Bunu bir çox tarixi faktlar da sübut edir. Belə bir daşqının olmasını bir çox dünya alimləri də isbat etmişlər. Aparılmış arxeoloji qazıntılar zamanı tapılmış dəlillər bunu sübuta yetirmişdir. Dünya alimləri indiki dövrün texniki tərəqqisi ilə yoxlayaraq, belə qənaətə gəlmişlər ki, Qurani-Kərimdə yazılanlar həqiqətən Göydən endirilmiş və Allaha məxsus kəlamlardır. Onlar dəyişdirilməmişdir. Ümumiyyətlə onları dəyişdirmək və onlara əlavələr etmək qeyri-mümkündür. Qurani-Kərimin 11-ci surəsində (Hud surəsində) buyrulur ki, Nuh peyğəmbərin vaxtında Rəş əhli Allahı təkzib edir. Nuh peyğəmbərin dediklərinə inanmırlar. Onda Nuh peyğəmbərə Allahdan vəhy gəlir ki, "Özünə gəmi düzəlt, dünyanı su basacaq". Nuh peyğəmbər özünə taxtadan gəmi düzəldir. Quranda "Biz onu (gəmini) ibrət üçün saxladıq" sözləri yazılmışdır. Bir çox yazılı mənbələrə görə həmin gəmi indiki Türkiyə dövlətinin sərhədlərindən 15 km məsafədədir. 1990-cı illərin axırlarında Rusiya Federasiyası qəzetlərinin birində həmin gəminin foto-şəkili verilmiş və Nuh peyğəmbər haqqında məlumatlar dərc edilmişdir ki, həmin gəmi həqiqətən də Türkiyə sərhədlərində olan Ağrı dağının zirvəsidir. Foto-şəkildən görünürdü ki, gəminin bir hissəsi buz qatının altında, bir hissəsi açıqdadır. Buradan aydın görünür ki, Qurani-Kərimdə yazılmış "Biz onu ibrət üçün saxladıq" kəlamı həqiqətdir. İnsanların dünya daşqınına inanması üçün həmin gəmi indiyə qədər saxlanılmışdır. Elə isə dünyanı su basmasına necə əfsanə demək olar.

Nuh peyğəmbərin vaxtında ona inananların çoxu gəmi düzəltmişdir və özlərini xilas etmişlər. Belə gəmi düzəldib özlərini daşqından xilas edən əməlisalehlərdən bir qisminin gəmisinin qırıqları indiki Tacikistan Respublikasının ərazisində olan Pamir dağlarında tapılmışdır.

Tədqiqatçı alim Milli Elmlər Akademiyasının sabiq əməkdaşı Əbilfəzil Hüseyninin apardığı tədqiqatların nəticəsində məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən Gəmiqayada da belə gəmi qırıqları qalmış və orada olan mağaranın birində saxlanılmışdır. Qaya üstündə mağaraya tərəf bir ox işarəsi qoyulmuş və onun üzərində qədim əlifba ilə "Nuh uludur" sözləri yazılmışdır. Buradan aydın olur ki, orada olan gəmi qırıqları Nuh peyğəmbərin gəmisinin qırıqları deyildir. Nuh peyğəmbərin sözünə baxıb gəmi düzəldərək özlərini xilas etmiş möminlərin bir qisminin gəmisinin qırıqlarıdır. Onlar Nuh peyğəmbərin sözünə baxıb gəmi düzəldərək, daşqından xilas olduqları üçün onu ulu adlandırmışlar. Burada maraq doğuran odur ki, onlar o vaxt (Nuh peyğəmbərin vaxtında) türk dilində danışmışlar. Buradan belə çıxır ki, bu gün Naxçıvanda yaşayanlar, eləcə də bütün azərbaycanlılar Nuh peyğəmbərin dövründə yaşamış möminlərin nəslindəndirlər. Odur ki, azərbaycanlılar yaşayan bir çox yerlər mübarək yerlərdir. Bu barədə bir az sonra...

O zaman 39 gün gecə-gündüz yağış yağmış, yer kürəsi öz quruluşunu - dağlar yerlərini dəyişdirmiş, çaylar istiqamətini dəyişərək başqa istiqamətə axaraq, dünyanı su basmışdır... Sonralar su tam çəkildikdən sonra gəmilər dağların zirvələrində qalmışdır. Müxtəlif məkanlarda qalmış gəmilərdən insanlar quru yerlərə enərək düzənliklərdə məskunlaşmışlar. Belə yerlərdən biri də indiki Özbəkistan Respublikasının Səmərqənd şəhərinin yerində olmuş Qalım şəhəri olmuşdur. Orada da arxeoloji qazıntılar zamanı tapılmış gil lövhələrinin üzərində qədim yazılarla yazılmışdır: "Biz Qalımda qalmalı olduq".

O dövrdə dünyanı su basmasını isbata yetirən başqa bir dəlil də məlumdur. Tacikistan Respublikasının ərazisindəki Pamir dağlarının uca bir yerindən böyük bir balina balığının sümükləri (skeleti) tapılmışdır. Bu da əyani olaraq sübuta yetirir ki, dünyanı su basmışdır. Sözsüz ki, dünyanı su basmasaydı o boyda balina balığı dünyada ən uca dağlardan biri olan Pamir dağlarına çıxa bilməzdi...

O ki, qaldı Naxçıvan Muxtar Respublikasının ərazisinin çox yerlərinin müqəddəs yerlər olmasına, bu haqda onu deyə bilərəm ki, Qurani-Kərimdə deyilir ki, Nuh peyğəmbər belə demişdir: "Pərvərdigarə, məni mübarək bir yerə endir." Buradan belə aydın olur ki, Nuh peyğəmbərin, ya da ona inam gətirmiş möminlərin gəmisinin Gəmiqayada dayanması bu yerlərin mübarək yerlər olduğunu göstərir. Ona görə də insanlar oranı ziyarət edərək, öz niyyətlərinə çatırlar, şəfa tapırlar. Qurani-Kərimdə buyrulduğu kimi peyğəmbərlər Nuh və onunla olanların nəslindəndirlər. Odur ki, Gəmiqayada dayanan gəminin sahibləri əsl mömindirlər. Onlar əlbəttə xilas olaraq mübarək yerdə dayanmışlar. Sonralar (su çəkildikdən sonra) indiki Gəmiqayadan (Qapıcıq zirvəsindən) aşağı enərək düzənliklərdə məskunlaşmışlar. Şübhəsiz ki, o insanlar (möminlər) həmin dağın ətraf ərazilərinə yayılaraq, oralarda yaşamışlar. Allahın mömin bəndələri olduqlarına görə onlar üçün müqəddəs yerlər seçilmişdir. Yəqin ki, Əsəfülkəfdə uyuyanlar da həmin möminlərin nəsillərindən olmuşlar. Ona görə də onlar Allahdan başqa heç bir inam yerinə inanmamışlar və Allahın təkliyini inkar edənlər tərəfindən təqib olunaraq, qaçıb Naxçıvanın Əsəfülkəf mağarasında gizlənmişlər. Allah-təala onları yuxuya verərək indiyə qədər sağ-salamat saxlamışdır. Qurani-Kərimdə buyrulur ki, "Onlar ölməmişlər, diridirlər". İnsanları Qiyamət gününün mütləq olacağına inandırmaq məqsədilə Allah-təala onları 309 ildən sonra dirildib (ayıldıb) yenidən yuxuya vermişdir. Yəni Allah-təala insanları inandırmaq istəyirdi ki, onlar öldükdən sonra Qiyamət günü İsrafil mələyin birinci süründən sonra mütləq diriləcəklər və onlara nəzarət edən mələklər vasitəsilə əməl dəftərləri sağ, yaxud da sol əlinə verilmiş şəkildə Allah-təalanın hüzuruna gətirəcəklər. Onların bu müvəqqəti dünyadan fərqli olaraq daimi həyata - Cənnətə, yaxud Cəhənnəmə göndərilməsi həll olunacaqdır...Bu yerlərdən başqa əlbəttə ki, Naxçıvanın mübarək yerləri çoxdur...

Adı çəkilən bu ziyarətgahlar Gəmiqaya və Əsəfülkəf abidə kimi dövlət tərəfindən qorunurlar.

O ki, qaldı Nuh peyğəmbərin qəbrinin Gəmiqayanın zirvəsində olmasına zənnimcə bu şübhəli bir məsələdir. Ona görə ki, həmin dövrdən indiyə qədər Gəmiqayada insanlar müxtəlif vaxtlarda məskunlaşmışlar və hazırda da oraya yaylağa çıxırlar. Deməli, hər hansı yaşayış olmuşdursa orada bu və ya digər adam ölə də bilər və orada dəfn oluna da bilər və s. Yəni Gəmiqayada tarixən (Nuh peyğəmbərin dövründən) yaşayış olmuşdursa və hazırda oradan insanlar bir yaylaq kimi istifadə edirlərsə orada mövcud olan qəbirlərin kimə məxsus olmasını demək çətindir. Bu haqda bir onu demək olar ki, dini kitablarda göstərilir ki, Hud peyğəmbərlə bərabər 98 peyğəmbərin qəbri Məkkə şəhərindədir. Çox güman ki Nuh peyğəmbərin qəbri də orada - o mübarək şəhərdədir. Qurani-Kərimdə qeyd edildiyi kimi Məkkə şəhəri dünyada ən mübarək bir yerdir. Bütün peyğəmbərlər orada olmuşlar. "Orada heç vaxt dava-dalaş olmaz, qan tökülməz".

Bundan başqa onu demək olar ki, Azərbaycanın mübarək yerləri çoxdur. Deyilənlərə görə Zərdüşt peyğəmbər Bakıda doğulmuşdur. Bəzi məlumatlara görə Məhəmməd peyğəmbərin nəslinə təsadüf edilən Mir Mövsüm ağa (Ətağa), Hökumə xanım da bakılı olmuşlar. Qurani-Kərimdə buyrulur ki, "Ya Peyğəmbər, sənin nəslin qiyamət gününə qədər yaşayacaq və həmişə sənə rəhmət diləyəcəkdir". Bir çox ziyarətgahların hər birinin sahibi Allahın birliyini təbliğ edən və tərkivətən olanlardır.

Bundan başqa Dəvəçi rayonunun ərazisindəki Xızır Zinda ziyarəti yəqin Xızır peyğəmbərin olduğu yer olmuşdur.

Qurani-Kərimdə buyrulur ki, Musa peyğəmbərlə Xızır peyğəmbər iki dənizin qovuşduğu yerdə görüşmüşlər.

Keçmişdə Xəzər dənizi ilə Qara dəniz bir-birilə qovuşaraq Pont dənizi adlandırılmışdır. Yəqin ki, Nuh peyğəmbərin vaxtındakı daşqınlar zamanı onlar ayrılmışlar. Beləliklə, Azərbaycanın müqəddəs yerləri çox olmuşdur...

Xızır peyğəmbərə çox güclü möcüzə verilmişdir. Belə möcüzə Xızır peyğəmbərdən başqa dünyada yalnız Süleyman peyğəmbərin vəziri Asəf ibn Bərxiyaya verilmişdir. Onlar göyün ən uca qatında yerləşən Lövhüməfuzda yazılanlardan xəbərdar idilər. Dünyada nə hadisə baş verəcəyi, kimə hansı bəlanın, var-dövlətin verilməsi Lövhüməfuzda yazılmışdır. Bu yazıları mələklərdən yalnız Cəbrayıl bilirdi. Yerə göndərilmiş İlahi kitablarda (Tövrat, Zəbur, İncil və Quranda) yazılanlar Lövhüməfuzda yazılmışdır. Bu kitabların içərisində ancaq Qurani-Kərim dəyişilmədən qalmışdır. Bundan başqa Xızır peyğəmbərə Qeybə aid bəzi elmləri bilmək möcüzəsi verilmişdir. Bu elmi ondan öyrənmək üçün Musa peyğəmbər onun görüşünə gəlmişdir.

Zərdüşt peyğəmbər gələcəkdə dünyada nə baş verəcəyini bilirdi.

Əsəfülkəf və Gəmiqaya abidələri də möcüzə ilə dolu hadisələrdir. Zənnimcə, bunları lazımınca öyrənərək təbliğ etsək dünyanın bir çox yerlərindən respublikamıza çoxlu sayda turist cəlb etmiş olarıq.

**İslam GÖYÜŞOV,**
***Azərbaycan Memarlar İttifaqının üzvü***